Tarix və onun problemləri, №3 2009

**DAXİL VƏLİYEV**
*BDU-nun Fəlsəfə tarixi və mədəniyytəşünaslıq kafedrasının aspirantı*

# İDEAL CƏMIYYƏT KONSEPSIYASI

XX əsr müsəlman şərqinin fəlsəfi fikir tarixində özünəməxsus yer tutan Əli Şəriətinin fəlsəfi nəzəriyyəsinin əsasında onun insan probleminin həllinə yanaşma metodlarını xarakterizə edən prinsiplər durur. Müasir fəlsəfə tarixini Ə.Şəriəti özünəməxsus tezisdə qurur: insanın daxilində bitməyən "dualistik döyüş" cəmiyyətdə iki zidd elementlər arasında gedən mübarizəni xatırladır. (5 səh. 131) "Tarix ziddiyyəti keçəndən sonra qurtarır"- deyən Şəriəti bu haqda öz fikrini tamamlayır. Şəriəti bəşər tarixində mövcud olan insan fəlsəfəsinin açarını əsrlər boyu bizə gəlib çatan Adəm Peyğəmbərin tarixi hesab etdiyi kimi Qabil və Habil tarixini də fəlsəfə tarixinin açarı hesab olunmasını məsləhət görür. *(6 səh. 98)*

Filosofun bu düşüncələrini bir yerdə tərbiyə almış iki qardaş arasında yaranmış münaqişə və faciəvi sonluq formalaşdırmışdır. Məsələ burasındadır ki, bu qardaşlar arasında yaranmış həmin dövrə aid ictimai münasibətlər iki antaqonistik sistemi simvollaşdırır. Habil bərabər hüquq və ədalətili cəmiyyəti təmsil edir. Onun dünyagörüşü "Tovhid" prinsipləri əsasında formalaşmışdır. Bu o deməк deyildir ki, Qabil pisliyin təmsilçisidir, sadəcə olaraq o bütün insanlar kimi formalaşmışdır və ilkin vaxtlarda zalım kimi özünü göstərməmişdir. Amansız qatilə o "köləlik" və "xususi mülkiyyət" sistemlərinin antihumanist xususiyyətlərini hiss etdikdən sonra çevrildi. Qabilin dünyagörüşü həmin dövrdə mövcud olan etiqada ziddir. (6 səh. 107)

Güc və hakimiyyət ədalət prinsiplərinə söykənməyən xususi mülkiyyəti əmələ gətirir və bu prinsiplər məhz Qabil və Habil münasibətlərinin formalaşmasına xidmət etmişdir. (1 səh. 72-73) Onlar bu münasibətlər əsasında daima din və qanunu arxa plana atmış ön planda isə xususi mülkiyyət formalarını saxlamışlar.

Bəşəriyyətin müharibələr, qırğınlar mərhələsinə qədəm qoyduğu an dünya bir – birinə əks gücün əmələ gəlməsinə müşahidə edirdi. Hər bir müharibə konkret məqsədə xidmət edir və bu səbəbdən tarix müəyyən olunmuş istiqamətdə inkişaf edir. Zalımlığın simvolu sayılan Qabilin simvolik ölümü bütün insanların birliyinin, qardaşlığının təməlini qoyacaq və onlar arasında bərabərlik və ədalətli prinsipləri təmin edəcəkdir. Bu istiqamət tarixi inkişaf üçün qaçılmazdır. Bu fikirləri Şəriəti ideallaşdıraraq bəyan edir: Bəşəri inqilab insan həyatının bütün tərəflərinə təsir edəcək və bu təsir nəticəsində əzilən insanlar öz tarixi qalibiyyətlərini əldə edəcəklər. (6 səh. 109)

Şəriətinin fikrincə tarix "cəmiyyətin qeyd edilmiş vaxtda istiqamətləndirilmiş hərəkətidir". (6 səh. 111) Bu konteksdə digər ictimai sistemləri analiz edərkən Ə.Şəriəti tarixi amilləri çıxarmaqla cəmiyyətə "təmiz şəkildə" baxmağı mümkün hesab edir. Digər tərəfdən umumi qəbul edilmiş ictimai iqtisadi formasiyaların mövcudluğunu rədd etməklə o, cəmiyyətin "struktur" sabitliyi tezisini irəli çəkir və bu konteksdə ilk insan icmalarında mövcud olan köləliyi, xususi mülkiyyəti, sinfiləri və s. - nin varlığını xarakterizə edirdi. Şəriətinin ictimai həyatın "formal" tərəfi kimi baxdığı siyasi və iqtisadi terminologiya, əmək formaları və münasibətləri tarixi dəyişikliklər zamanında yalnız səthi olaraq baş verir.

Ilkin ictimai münasibətlərin formalaşması zirvə səviyyəsinə çatdıqdan sonra sakitləşmə mərhələsi bəşəriyyətə yeni dini – ictimai münasibətlərin inkişafına xususi təkan verdi. Bu münasibətlər sonunda müsəlman icmasını – ümmanı insanların ahəngdar əməkdaşlığının yeganə mümkün forması kimi Şəriəti ideal cəmiyyət prinsiplərini elan

edirdi. Burada yeganə birləşdirici faktor din və dini mədəniyyət hesab edilirdi. Ümumiyyətlə ümmada mövcud olan prinsiplər bərabərlik və ədalət prinsipləri əsasında ümumxalq mülkiyyətini təmin edir.

Şəriəti özünü "xalqın nümayəndəsi" və maraqları qoruyan hakimiyyətin tərəfdarı adlandırırdı. (3 səh. 103) Lakin onun ideal dövlət üçün arzu etdiyi dövlət quruluşu qərb mütəfəkkirlərinin, liberalizm tərəfdarlarının başa düşdükləri demokratiya deyil, xususi umma prinsipləri əsasında qurulmuş ədalətli və bərabər ideal cəmiyyətidir. Şəriəti qərb demokratiyasını "tamam çürümüş" adlandırır və siyasi konyukturanı seçicilərin deyil, məhz pulun gücü ilə təyin olunmasını vurğulayırdı.

Onun fikrincə, qərb demokratiyası öz əsas mahiyyətini itirmiş umumi bərabərliyi təmin etməyərək hər bir azlığı çoxluğa qarşı qoyurdu. Müasir demokratik prinsiplərin istənilən halda oliqarxların və aristokratik zümrənin xidmətçisinə çevrilməsi təhlükəsinin mövcudluğunu Şəriəti xüsusi qeyd edirdi. Şəriəti onları antidemokratizmdə ittiham edərək Sokratı və onun davamçıları olan Platon, Aristotel, Alkiviad, Ksenofontu yaxşı hakimiyyət nəzəriyyəsinə görə kəskin tənqid edirdi. (3 səh. 163)

İdeal cəmiyətin ilkin fəaliyyətinin əsasını Şəriəti iki prinsip formasında ortaya qoyurdu. Onlardan birincisi - dini hərəkatda könüllü olaraq iştirak edən və cəmiyyətin taleyində öz məsuliyyətini başa düşərək icma üzvlərinə tabe olan prinsipdir. Ikincisi isə ədalət və bərabərliyi həyata keçirən "nöqsansız rəhbər" prinspidir.

Şəriəti ideyalarına görə tarixdə bu prinsplərin yaranması"gizli" imamın dövrünə, imamların və peyğəmbərlərin missiyası dövrünə və müxtəlif ümmaların formalaşması dövrünə təsadüf etmişdir. Bu prinsiplərə görə insanlar özləri islamı qanunlarını öyrənməli və təfsir etməlidirlər, bundan başqa hər bir müsəlman öz dini mədəniyyətini hər cür təhrifdən qorumalıdır. Şəriəti hesab edir ki, hər bir müsəlman icması və bu icmanın içərisində olan qruplara xususi seçilmiş isteda malik insanlar rəhbərlik etməli , din elmini, islam qanunlarını, icmanı idarəetmə prinsiplərini təkmilləşdirməli və bu prinsipləri əldə rəhbər tutmalıdır. Məhz bu qrupa siyasi hakimiyyəti etibar etməli, qrup isə öz növbəsində ümumi hakimiyyətə rəhbər kimi ən düzgün, ən savadlı adamı seçə bilər. Belə seçilmiş insan müvəqqəti imamı əvəz edir. Şəriəti əmindirki bunda qanunsuz heçnə yoxdur: axı imam öz növbəsində peyğəmbərin yerini tutur. Bu mənada müsəlman icması mədəni hökuməti müdrikcəsinə formalaşdırır. Şəriəti qeyd edir ki, müsəlman icması tərəfindən seçilmiş liderə tanrı tərəfindən xuxusi dövrün başlamasına qədər xeyir – dua verilmişdir. (5 səh. 136-141)

Buradan görünür ki, Şəriəti ictihad nəzəriyyəsini demokratik prinsiplərlə birləşdirməyə çalışır. Lakin belə uyğunlaşmanın konkret yolunu o göstərmir. Şəriətinin arzuladığı ideal cəmiyyətdə ictihad və demokratik prinsiplərin qarşılıqlı əlaqələrinin tarixi yolu mütləq göstərilməlidir.

Müsəlman icmalarında insanların öz liderləri ilə birlikdə məqsədəuyğun hərəkət etmələri üçün yalnız və yalnız xüsusi inam forması mövcud olmalıdır. Şəriəti qeyd edir: "heç bir icma inamsız inanc mənbələri mövcud olmadan effektli idarə oluna bilməz". (7 səh. 160) Şəriətinin işləyib hazırladığı imamət konsepsiyası Qərbdə mövcud olan xarizmatik lider konsepsiyası ilə müqayisə edilə biləcək qədər gücə malikdir. Bu konsepsiyaya görə hər bir müsəlman icmasının lideri xüsusi keyfiyyətlərilə üzə çıxmalıdır. (8 səh 127)

Hər bir icmanın rəhbəri öz qurduğu cəmiyyətin əsas məqsədi - insanın yerdə Allahın iradəsinin daşıyıcısı olduğunu başa düşməlidir. Ancaq müsəlman icmalarının xristian icmalarından fərqləndirici cəhəti odur ki, xristian icmalarında mövcud olan mistik

işarələr deyil onların liderlərinin öz icmalarının inkişafı üçün qüsursuz hərəkət yolunun müəyyən olunmasıdır.

Şəriətinin fikrincə icmada şəxsiyyətə pərəstiş mümkün deyil, yalnız Allaha olan inam itirildikdə bu boşluğu hər hansı bir icmanın iflası surətlənir. Dini rəhbərlik bütün icmanın maraqlarını ifadə etməlidir. Bu halda hakimiyyət xalqa məxsus olacaq, rəhbərin şəxsi maraqları isə bütün icmanın üzvlərinin maraqları ilə üst - üstə düşəcək.

İdeal cəmiyyətin formalaşdırılmasının əsasında "Ədalət" prinspi durur. "Tanrı həmişə ədalətlidir" - o elan edir, buna görədə Şəriəti hesab edir ki, insan cəmiyyəti ədalətsizliyi ləğv etmək məcburiyyətindədir. Hər bir ideal müsəlman cəmiyyəti islamı təhrif edənlərə qarşı kəskin mübarizə aparmalıdır.

Hər bir müsəlman liderinin idarəetmədə əsas kriteriyası total və mücərrəd ideyalara qarşı kəskin mübarizə aparmasıdır. Dövlət diktaturası əleyhinə emosianal çıxış edən Şəriəti islamın mütərəqqi ideya tərəfdarlarının daşıyıcılarına güclü dəstək verirdi. Bu ideyalara söykənən idarə üsulu idarəetmənin yeni forması olub, şəxsiyyətə hörmət, şəxsiyyətin inancına sayqı ilə yanaşması metodların əldə rəhbər tutmalıdır.

Bu konsepsiyaya görə iqtisadi azadlıqdan üstün mənəvi azadlıq, daha üstün olur. Şəriəti növbəti dəfə islam ideyalarının aliliyi çərçivəsində "həqiqi, düz, birbaşa demokratiyanı" müəyyən edir. Dövlət hakimiyyəti cəmiyyətin maddi və mənəvi inqilab proqramına rəhbərlik edən bir qrup insanın əlində cəmləşməlidir. Bu proqram insanların özü kimi mövcud olan ictimai əlaqələri də dəyişməyə çağırır. Filosof öz düşüncələrinə müəyyən aydınlıq gətirməyə çalışır. Onun fikrincə, bütün icma üzvləri dövləti idarə etmədə seçkilərdə səs verməklə iştirak etməlidirlər. Əsas məqsəd ondadır ki, bu cəmiyyətə ədalət və bərabərlik ideologiyası əsas məqsədə doğru hərəkət etməyi başa salmaq maddi və mənəvi vəzifələrini layiqincə yerinə yetirməkdir. Bu yolda seçilmiş lider hər hansı bir iradəsizlik göstərsə o an cəmiyyətdə xüsusi bir durğunluq yaranacaq və həmin liderin öz vəzifəsindən kənarlaşdırılması üçün şərait yaranacaqdır.

Ideal cəmiyyətdə "qüsursuz insan" ideyası ilə bağlı Şəriəti kamil insan konsepsiyasını da işləyib hazırlamışdı. Onun bu konsepsiyasında yaradılmış insan obrazı bir çox xüsusiyyətlərinə görə Məhəmməd İqbalın "insan kamil" obrazını xatırladır. Şəriətiyə görə hər bir insan "kamil insan" obrazına daxil olduqda yer üzərində ilahi iradəsini yerinə yetirən bir varlığa çevrilir. (9. səh. 85-86,92-93)

Bu insanda olan mübarizə əhval ruhiyyəsi onun yalnız tanrıya deyil eyni zamanda cəmiyyət problemlərinin həllinə başlayaraq bir üsyankara çevrilir. Bu mənada Şəriəti islam dünyasının görkəmli nümayəndələrini xüsusi qeyd edərək Məhəmməd peyğəmbəri və onun davamçılarından olan öz həyatını azadlıq və ideal cəmiyyət üçün qurban verən Imam Hüseyni nümunə kimi göstərir. (10. səh 167) Nümunəvi cəmiyyət Məhəmməd peyğəmbərin dövründə mövcud idi. Belə ki, həmin dövrdə "dini icma" və "hökumət anlayışı" bir – birindən heçnə ilə fərqlənmirdi.

Məhəmməd peyğəmbərin timsalında "kamil insan" keyfiyyətinin cizgilərini verən Şəriəti xüsusi qeyd edir ki, həmin çətin dövrdə Peyğəmbərimizin sinəsində "İsanın ürəyi" döyünür, əlində isə "Sezarın qana bulaşmış qılıncını" tuturdu. Bu simvolik sözlərlə Şəriəti göstərməyə çalışırdı ki, icmada seçilmiş başçının yürütdüyü daxili və xarici siyasət "qarşılıqlı sevgi", qana boyanmış boğulma" prinsiplərinə söykənmiş halda, "kölə halına salınmış insanlığın qurtuluşu" yolu ola bilərdi. Bu iki prinsip mütləq bir – birinə uyğunlaşmalı və həyat simvoluna çevrilməlidir. Onlardan ayrı – ayrılıqda istifadə icmanın və icma siyasətinin məhvinə səbəb olacaqdır. Eyni zamanda, Şəriəti qeyd edir ki, "kamil insan" xüsusiyyətilə icmaya rəhbərlik edən şəxs yüksək məsuliyyət hissinə malik olmalıdır. Bu hissə malik olan insan mənəvi təmizliyə malik olub icmada mövcud olan

prinsiplərində buna uyğunlaşdırmalı, dahilik, xeyirxah ideyaları isə insan xoşbəxtliyi üçün fəaliyyət istiqaməti sayılmalıdır.

Şəriətinin fikrincə "kamil insan" yer üzərində "Allahın valisi" hesab olunduğu üçün bütün müsbət keyfiyyətlərə malik olmalıdır. Bu halda o ilahi gücün sayəsində "şeytan xislətli" insanlara mütləq qalib gələcəkdir. Artıq çaşdırıcı seçim etmək zərurətidən xilas olan bu insan tanrını dərk etməyə doğru öz hərəkətini davam etdirir və bu mübarizədə Musanın, İsanın, Buddanın, Lao – Tszının, Konfutsinin, Spartakın, Əbu Zərrin, Əl- Qifalinin ən yaxşı keyfiyyətlərini özündə cəmləşdirir. (3 səh. 102) "Kamil insan" hər tərəfli və mövcud olan qaydalara uyğun inkişaf etməli və inkişaf etməkdə olan elmi nailiyyətlər isə inama olan meylini geri qaytarmamalıdır. (11. səh. 122) Ümumiyyətlə "Kamil insan" üç mühüm xüsusiyyəti özündə cəmləşdirir. Elmlə paralel inkişaf edən inam, mənəviyyatın əsaslarını təşkil edən mərhəmət və insanın müxtəlif vasitələrlə bədii yaradıcılıq sahəsində ifadə etdiyi hisslər.

Şəriəti insan və cəmiyyət nəzəriyyəsində pozitiv bir sərhəd saxlayır. Bu sərhəd istismarçı insana qarşı yönəlmiş bərabərlik və sinifsiz cəmiyyət uğrunda mubarizədə insanın xüsusi qoruyucusuna çevrilmişdi. O dindarların sosial və siyasi fəaliyyətsizlik yaradan kor – koranə itaətkarlıq anlayışlarının qəti əleyhinə çıxırdı. Şəriəti özünün yaratdığı insan və cəmiyyət konsepsiyasının təfsirində bütün mövcud olan təbəqələrin maraqlarını əks etdirmiş və onları istismarçı təbəqələrə qarşı yönəltməyə müvəffəq olmuşdur. Məhz bu səbəbdən Şəriəti ideyaları İran inqilabında əhəmiyyətli rol oynayan bir çox təşkilatların proqramının əsasını təşkil etmişdi.

## ƏDƏBIYYAT

1.Kurani-Kerim ve açıklamalı meali. Ankara.1970
2.Şəriəti Ə.İslamlaşma. Məşhəd, 1978.
3.Şəriəti Ə.Səhralıq. Tehran, 1970.
4.Агаев С.Л. Зигзаги иранской революция. – Вопросы философии. 1985, №1.
5.Воробъев В.Н. Мифотворческая функция государственных идеологических доктрин в Иране 60-70-х годов XX века. – Массовая литература в странах Азии и Африки М. 1986
6. Дорошенко Е.А. Шиитское духовенство в современном Иране М. 1980
7.Степанянц М. Т. "Мусульманские концепции и философии и политике (XIX – XX вв)" М. 1982
8. Bayat – Philipp M. "Shiism in Contemporary Iran Politics: the Case of Ali Shariati. – Towards a modern Iran"
9.Akhavi Sh. Shariati`s Sosial Thought – Religion and Politics in İran. Shi`ism from Quielism to Revolution. Ed by N.R. Keddie. New Haven – London. 1983
10 Shariati A. On the Sociology of İslam: Lectures. Berkeley.1979.
11.Shariati A. "Marxism and Other Western Fallacies: an İslamic Critique". Berkeley 1980.

**ДАХИЛЬ ВЕЛИЕВ**
*аспирант БГУ*

## КОНЦЕПЦИЯ «ИДЕАЛЬНОГО ОБЩЕСТВА» АЛИ ШАРИАТИ

В статье анализируется концепция идеального общества Али Шариати. Под этим обществом подразумевается сообщество людей, где преобладают ценности религиозной духовной культуры. В таком обществе должен соблюдаться принцип социальной справедливости

и уважения к человеку, здесь все должно быть направлено на повышение уровня жизни людей. В статье проводится параллель между теорией «иджтихад» и демократическими ценностями, рассматриваются проблемы свободы и «совершенного человека».

**DAXIL VALIYEV**
***(post) graduate of BSU***

**THE CONCEPTOIN OF AN IDEAL SOCIETY**

The article has been dedicated to the analysis of the pronunent philosopher A.Shariat`s conception of an ideal society. The Author notes that when Shariat says the ideal society he means the society where the religious culture prevails, there is a great respect for a man here, the main principle is society justice and every thing has been made for the improvment for man`s welfare. The pretender draws parallels between A. Shariat`s protest theory and democratic values. The philosopher`s thoughts about "freedom" and "wise man" are scientifically analyzed and proved.

***Rəyçilər: akad.F.F.Qasımzadə, f.e.d.Z.Hacıyev.***
***BDU-nun Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının 06 iyun 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №17).***